# “Barıt qoxulu çiçək”



Kimsəyə sirr deyil ki, bu gün Cəlilabad rayonunda yaşayıb yaradan söz-sov adamları – nasirlər, şairlər, eləcə də ədbiyyatşünas tənqidçilər Azərbaycan ədəbi-mənəvi mühitinin tarazlıq mərkəzi ilə, yəni Bakı ilə kifayət qədər təmasdadır. Özü də müəyyən mənada əyalət təmsilçisi olmaqlarına baxmayaraq bu ərazidə yaşayan sənətkarlar sözün həqiqi mənasında mənəvi imkanlarına güvənərək özlərinə diqqəti yönəldə bilirlər. Ad çəkmək həmişə problem olub. Ədəbiyyatşünas alim, şair Bilal Alarlı, nasir Meyxoş Abdulla, şairlər Əlirza Həsrət, Vəliyulla Novruz, Ədalət Salman, Əfrayim Abbas, Gülbala Teymur, Ələddin Əzimli və digər adlarını çəkmək imkanında olmadığım sənətkarların hər biri müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ən maraqlı səhifələrinin müəllifləridir.

Bu gün bu yüksək istedad və intellekt sahibi olan sənətkarlar arasından birinə - Əlirza Həsrətə vaxt payı düşdü.

Əlirza Həsrət adı atamın, anamın qoyduğu adın əkizi – Əlirza, özünü dərk edəndən, özünü tanıyandan sonra, şübhəsiz, böyük Azərbaycan həsrətini ağrıya çevirərək varlığında daşımaq missiyasına sahib olandan sonra “Həsrət” ədəbi təxəllüsünə də sahib olub. Əvvəllər onun həsrət anlamını necə qavradığını, necə ruhuna yığdığını və bu həsrət missiyasını necə daşıyacağını fikirləşəndə dumanlı şübhələr, çənli, çiçəkli düşüncələr məni qapsayırdı. Amma zaman keçdikcə onun böyük vətən anlamı daşıyan mənəvi yükünün ağırlığını şeirlərində gördüm. Və hiss etdim ki, o, “Həsrət” adına gəlişigözəllik xatirinə diqqəti özünə çəkmək istəyinə görə gəlməyib. Onun ürəyinin yaralı yerləri var və bu yaralar əslində elə vətən xəritəsinin yaralarıdır.

Təfərrüata varmadan başıma gələn bir işi də deyim: Bir dəfə bir məclisdə kimsə kağız üzərinə çıxarılmış şeirlər oxudu. Dedi ki, bu şeirlər Əli Rza Xələflinin – Əlirza Həsrətindir. Həqiqətən, xüsusi fəhmlə, müəllif olaraq dinləyirdim. Oxunan şeirlərin arasında mənim də şeirlərim vardı. Yəni 3 şeir mənim olsa da, 4 şeir mənim deyildi. Onu hamı axıracan dinlədi və şübhəsiz, vətən həsrətli şeirlərə görə ifaçını alqışladılar. Mən yerimdə donub qalmışdım. Necə iki müəllifin şeirləri ruh etibarı ilə bir-birinə doğma ola bilərdi. Mədəniyyət və İncəsənət Universitetinin gənc müəllimi həmin şeirləri oxudu və o saat da çıxıb getdi. Tədbirdən sonra məni də təbrik edənlər oldu, amma nə qədər izah etdim ki, o şeirlərin yarısı mənim deyil. Cəlilabadda yaşayan Əlirza Həsrətindir. Amma deyəsən kimsəni inandıra bilmədim. “Elə Əlirza Həsrət sən deyilsən bəyəm?”- yarı canlı, yarı cansız bu sualı gözlərdən də oxuyurdum. Sonralar eşitdiyimə görə o şeirlər haradasa çap olunmuşdu. Bilmədim Əli Rza Xələflinin adı ilə, yoxsa Əlirza Həsrətin adı ilə. Və bir daha inandım “ruh qardaşları” anlamının həqiqiliyinə, doğruluğuna.

Əkizliyin çox tərəfi də var, bir tərəfi də elə ruh doğmalığıdır. Mən həmişə Əlirza Həsrəti özümdən də ilhamlı və həsrət ruhu üzərində kökünə görə daha öndə görmüşəm. Hələ onu da deyim; “Azərbaycan” jurnalında çap olunan şeirlərinə görə məni çoxları zəng edib təbriklərini bildiriblər. Qürurlu duyğulardır. Kiməsə demişəm ki, o mənim dostumdur, qardaşımdır. Amma kimisə də inamında sındırmamışam. Təbrikinə təşəkkürlə cavab vermişəm.

Əlirza Həsrət son 20 ildə həmişə mənimlə birgə olub. 2007-ci ilin noyabrında atamın son köçü ilə bağlı yazdığı şeiri ustad Zəlimxan da çox uca tutmuşdu, hətta öz şeirindən də öndə görürdü. Ustad Zəlimxan da atamın son köçünə çox dəyərli bir şeir həsr etmişdi. Əlbəttə, ustadın Əlirza Həsrət kimi şairə xüsusi rəğbət bildirməsi onun böyüklüyündən xəbər verirdi.

Həsrət yaman dərdir, kaş heç kimsəni tapmaya. Mən elə doğulub dünyaya gələndə deyilənə görə çox bərk ağlamışam, səsim çığırtım aləmi başına götürüb. Bəlkə elə sərhəd məftillərinin cızıltısını dünya elə göz açmağımla taleyimə yazıb. Bəlkə elə o ağrının səsi imiş məni çığırdan.

Həsrət Əlirzanın da səsini hər şeirində, hər misrasında anamın dediyi ilə yaddaşıma gələn duyğu kimi eşidirəm.

Əlirza Həsrət böyük şairdir. Ən azı vətən sevdalısı olaraq “Qələbə” poeması ilə ədəbiyyat tariximizin xüsusi adına-sanına layiq sənətkardır. Poemanın bir yerində qəlbimi titrədən duyğuları sakit, hissiz, səssiz, təmkinlə oxuya bilmirəm: “Qarabağın azadlığı şərəfinə yazdığım "BARIT QOXULU ÇİÇƏK" poemasından bir fraqment... Cəbrayılda görüşmək arzusuyla şair Əlirza Xələflini sübh tezdən telefonla təbrik edərkən ürəyinin səsinə diksindim dostumun. Heyran oldum adaşımın belə gözəl susmağına. Sevincdən qəhərlənən şairin göz yaşları Qarabağa tərəf çilənən aydınlıq suyu idi... Gözlərin aydın olsun,şair dostum Əlirza Xələfli!

Qucağın qərib beşiyi,
Ayrılıq çəkir keşiyi.
Sahmana sal ev-eşiyi,
Qarabağa yol açılır.

Xatirəsi bal kişinin,
Ürəyi xal-xal kişinin.
Qəbri üstə Zal kişinin,
Tikan solub,gül açılır.

Dərdimiz dönümcə dağa,
Sınadılar bizi,qağa.
Boynumuza dolanmağa,
Gör nə qədər qol açılır.

Əyilsə igidin qəddi,
Tutar bizi yurdun cəddi.
Bundan belə bizim kənddi,
Sərhədlər tel-tel açılır...”.

*(Davamı 16-cı səhifədə)*

Kredo.- 2021.- 25 avqust.- S.1;16.

# "Barıt qoxulu çiçək"




*(Əvvəli 1-ci səhifədə)*

Oğul deyirəm bir kimsə bu misraları sakit, sadəcə oxucu marağı ilə oxusun. Oxuya bilməz, çünki hər misrada od var, alov var. Həsrətin şair ürəyində oda, alova dönmüş ocağı yanır və şübhəsiz, sənətin bir missiyası da elə budur. Özü yanmasa, onu görəni, oxuyanı, duyanı da yandıra bilməz.

Mən Xudafərin üstə doğulmuşam. Anamın dayısının yerdənqazma bir daxması varmış. Həmin daxmaın qapısını açanda qar-qırov içəri dolub. Payızdan hələ 14 gün qalıbmış. Həmin günün səhər çağı qar-qırov içində dünyaya gələn uşaq bəlkə elə Xudafərin həsrəti ilə oda bükülübmüş. Əlirza Həsrət də elə bu oddan danışır: "...Xudafərin körpüsü belini dikəltmişdi deyə, sərhəd dirəyində yuva quran quşun göz yaşları sığal çəkirdi tikanlı sərhəd tellərinə...

Çəkməz bundan belə xarıbülbül ah,
Xan qızı Natəvan bu eşqdən agah.
Bir əsgər gül tutub, bir əsgər silah,
Şuşada məst olub qış çiçəkləri.

Vətən torpağısa məlhəm canına,
Hər igid meydanda gərək tanına.
Sinəsi boyanar şəhid qanına,
Bağrına basanda quş, çiçəkləri.

Ay aşıq, mizrabı yavaş vur telə,
Bürküdür, yaxamı qoy açım yelə.
Bir şəhid ruhuna heykəldir elə,
Elə qoxlamazlar daş çiçəkləri".

Əlirza Həsrətin "Barıt qoxulu çiçək" poemasını yana-yana oxuyuram. Misra-misra, bənd-bənd yeriyirəm. Elə bil ki, Əlirza Həsrətin mənəvi dünyasındakı bölünmüş sərhədlərdən keçirəm və bu sərhədlər üzərində düz gözümün içinə tuşlanmış silahlar görürəm və sanki bir an da keçəcək, silahların tətiyi çəkiləcək, güllələr hədəfə aldıqları məni deşik-deşik edəcək.

Vallah bird aha deyirəm, şairlərsiz çox mətləblər qaranlıq qalardı.

"Barıt qoxulu çiçək" poemasını orta məktəb dərsliklərinə salmaq, radioda, televiziyada şərhlərinə vermək, bir sözlə, "Barıt qoxulu çiçək"in mahiyyətini hər bir azərbaycanlının ruhuna həsrətdən xilas ola bilməyin yeganə vaksini kimi yeritmək lazımdır:

"Yolların, izlərin qaçıb yuxusu,
Dağların heç nədən yoxdur qorxusu.
Hayana baxırsan barıt qoxusu,
Hayana baxırsan qan çiçəkləyib.

Ta kimsə baş əyməz burda qurşuna,
Vətən gül-çiçəklə çıxar qarşına.
Hamı qol götürüb "Zəfər marşı"na,
Şöhrət çiçəkləyib, şan çiçəkləyib.

Gəldi bu torpağın kotanı, xışı,
Tutacaq aləmi sünbül naxışı.
Gülür təbiətin ülkər baxışı,
Xoruz dimdiyində ban çiçəkləyib...".

Bircə arzum var, Əlirza Həsrətlə birgə Xudafərini keçmək, Təbriz ağrısını fədai istəyi ilə çiçəklənən duyğuya çevirmək, Qarabağda onu öz evimdə qonaq görmək. Ancaq Əlirza Həsrətin bu yanan duyğularına bu istəklə cavab vermək mümkündür:

... vallah, bir gün şairlər olmasa, Vətən də olmayacaq.

*Əli Rza* Xələfli
*24.08.2021*